dikdə isə, alimlər vurğusuz sözlərdə sait və samit səslərin nisbətən bir bərabərdə olmasını qeyd edirlər. Rus dilinin intonasiya sistemi artıb, azalan rəvan keçidlərlə əvəz olunur ki, bu da ahəngdarlıq əmələ gətirir, sual cümlədə son hecanın həddən artıq uzadılmasını yaradır, başlanğıc sait səslərinin uzadılması meydana çıxır, "D" və "J" hərflərinin bitişik şəkildə uzlaşmasını, cümlənin sununda intonasiyanın birdən-birə yüksəlməsini meydana çıxarır.

Rus və Azərbaycan dili həm də orfoepik normalardan irəli gələn fonem quruluşuna görə fərqlənir. Rus dilində sait səslər fonemi 5, samit səslər fonemi 34-37-dir. Azərbaycan dilində 9 sait, 23 samit fonem var. Rus dilində sait səslərin xarakteri samit səslərlə müəyyənləşir. Azərbaydan dilində isə əksinə, samit səslər saitlərin qalın və ya incə olmasından asılıdır. Rus və Azərbaycan dillərində sintaqmatik xüsusiyyətlər üzrə aparılan tədqiqat zamanı alimlər sübut etmişlər ki, başlanğıc samit səslərin uyğunluğu onların artan səslənmə üzrə düzülüşündən ibarətdir. Müasir mərhələdə Azərbaycan dilində başlanğıc konsonant samit səslər yoxdur. Burada əsas qanunauyğunluq sözün sonuna doğru onların azalmasından ibarətdir.

Həm rus, həm də azərbaycan dilində hecanın zirvəsini sait səs təşkil edir. Lakin rus dilində samit səslərin sayı sözün əvvəli və sonunda dördə, sözün ortasında isə beşə çatır. Azərbaycan dilində söz və heca bir samit səslə başlaya bilər, sözün sonunda isə iki samit səs bir-biri ilə növbələşə bilər, sözün ortasında samit səslər hecalara bölünür.

Hər iki dil həm də ritmik vurğu baxımdan fərqlənir. Elə dillər mövcuddur ki, həmin dildə istənilən heca vurğulu ola bilir. Məsələn, rus dilində belədir. Amma elə dillər də vardır ki, müəyyən edilmiş vurğuludur. Məsələn, azərbaycan, fransız, türk dillərində vurğu hecanın sonuna düşür.

Azərbaycan dilində sait səslər qalın və incə, qapalı və açıq olur, sayına görə adi, uzun və qısa olur. Azərbaycan dilində samit səslər də həmçinin kar və cingiltili, əksər hallarda qoşa olur. Burada spesifik xüsusiyyət kimi sözlərin ortasına samit səslərin qoşa işlədilməsini əlavə etmək lazımdır.

1.2. "Vokal ifaçının intonasiya mədəniyyətində tələffüzün rolu" adlanır. Bu yarımfəsildə intonasiya mədəniyyəti tədqiq olunur. İntonasiya mədəniyyətinin tədqiqi nitq və musiqinin intonasiyalı təbiətinin üzə çıxarılmasını, onun başa düşülüb, dərk olunmasını özündə cəm edən problemlər kompleksini təşkil edir.

Musiqini "intonasiyalı ifadə" kimi səciyyələndirən B.Asafyev özünün klassik tərifi ilə mühüm müşahidələr aparmışdır. Alim tərəfindən musiqi ilə nitq intonasiyasının qarşılıqlı əlaqəsinə dair aparılan tədqiqat işləri müasir musiqi elmini zənginləşdirmişdir. Birbaşa anlaşılmayan, lakin sözə müəy-

yən emosional çalar bəxş edən və nitqi məna tərəfdən anlaşıqlı edən nitq intonasiyası musiqi vasitəsi ilə nəinki ifadə olunur, həm də onun əsas intonasiya ritmini təşkil edir.

Bəstəkar intonasiyası musiqi obrazının əsasıdır. Buna görə də müəyyən dövr, bəstəkar və əsərdən irəli gələrək, intonasiyanın ifaçı üçün vacibliyini dərk etmək önəmlidir. Qeyri-dəqiq intonasiya ilə yanaşı, bir çox muğənnilər arasında ən geniş yayılmış nöqsanlar bunlardır: qeyri-mükəmməl tələffüz, sait səslərin təhrif olunmuş səslənməsi, samit səslərin və səs ahənglərinin qeyri-müəyyənliyi. Yaxşı tələffüz aydın və dəqiq şəkildə ifadə olunur, hər bir sait səs, eləcə də söz və ya ibarələr ayrı-ayrılıqda düzgün əksini tapır. Bununla yanaşı, tələffüz ifadənin aydınlıq dərəcəsini nəzərdə tutur, onu məişət tələffüzündə rast gəlinən yanlış artikulyasiyadan azad edir. Beləliklə, vokal tələffüz dedikdə, musiqili-vokal tələblərə tabe olan vokal nitqin ifadəliliyi nəzərdə tutulur.

Vokal tələffüz səs apparatının bütün aspektləri ilə, səslərin fonasiya problemləri və səsin vokal-texniki üsul və prinsipləri ilə qarşılıqlı əlaqədədir (səs həmləsi və səs rekursiyası, heca və ibarələrin intonasiya və dinamikası və s.).

Azərbaycanda akademik yönlü vokal sənətində tələffüz problemi xüsusi məna kəsb etmiş, SSRİ xalq artisti Bülbülün yaradıcılığında nəzəri və təcrübi əksini taparaq, Şərq və Qərb vokal ifa tərzinin birləşməsinin mümkünlüyünü isbatlamışdır. Görkəmli vokal ifaçı elmi müddəalara əsaslanaraq, bu qənaətə gəlmişdir ki, Azərbaycan dili səsin təşəkkülü üçün tam yararlıdır və "vokal ifaya yiyələnmək baxımdan hətta italyan dilindən daha üstündür"[64]. Bülbül Azərbaycan sözlərindən təşkil olunmuş xüsusi məşğələlər tərtib edərək, onları doğma dilimizin fonetik xüsusiyyətləri əsasında qurmuşdur. Bu məşğələlərdə beş deyil, doqquz sait səs öz əksini taparaq, onların ahəng qanunu üzə çıxarılır. Bu səslər yüksək pozisiyaların meydana çıxması üçün tez bir zamanda uyğunlaşırlar. Bununla yanaşı, Bülbül həmin məşğələləri Avropa və rus vokal məktəbinin ümumi prinsiplərinə müvafiq olan Azərbaycan melodiya və sözlərindən təşkil etmişdir. Bülbül hesab edirdi ki, Azərbaycan dilinin ahəng qanunu bizim ifaçılara bəzi üstün cəhətlər verir. Ona görə ki, artikulyasiyanın eyni bir yerdə ifadə olunması nə səsi, nə də sözü təhrif etmir, ifaya xüsusi çalar bəxş edir. O, belə bir qənaətə gəlir ki, "İ - E" fonemləri ""A – O- U" səsləri ilə müqayisədə daha

[64] Фонетические особенности азербайджанского языка и их значение в пении // bulbulmuseum.az/?page_id.

yüksək pozisiyalar əmələ gətirir. Ona görə də o, bütün məşğələləri doğma dilimizin ahəng qanunu üzərində quraraq, registrlərin səlisləşdirilməsini, səs yüksəkliyini və səs tembri üçün zəruri olan yeni obertonların meydana çıxmasını təmin etmişdir.

Bülbül qeyd edir ki, bütün dillərdəki vokalizm beş sait səsə dayaqlanır: "a – o – u – e - i". Azərbaycan dilində vokalizm isə onun fikrincə, doqquz sait səs üzərində qurulmalıdır: "u - i - o - e - ə - ü - ö - a - ı". Bu zaman "e" – "a" və "ı"dan daha açıqdır. Onun fikrincə, sait səslərin ahəng qanunu kobudluğu aradan qaldırır, artikulyasiyanın eyni bir yerdə ifadə olunması isə ifa zamanı müğənninin dəqiq tələffüzünü əmələ gətirir. Bununla bərabər, Bülbül məsləhət görür ki, ayrı-ayrı məşğələlərin köməyi ilə yeni başlayan müğənni döş qəfəsindən baş registrinə və əksinə, baş registrindən döş qəfəsinə keçid etməyə nail olsun. Bu məşğələlər bəm səslərdəki 8 -9 tonların möhkəmliyini əmələ gətirir, keçid tonlarını və zil səslərdəki üç yarım tonu gücləndirir.

Bülbül yazır ki, rus dilində olan altı əsas fonemin hər biri öz incə xüsusiyyətinə malikdir. Bu fonemlər başqa dillərə nisbətən daha açıq və yaxud qapalıdır. Belə halları o, Azərbaycan dilində də müşahidə edir və qeyd edir ki, sait səslərin uzun və qısa olması mühüm morfoloji və semantik məna malikdir. Hər bir fonem vasitəsi ilə sözün mənasını dəyişmək mümkün olur, bəzi dillərdə isə, məsələn, Azərbaycan və alman dilində fonemlərin sayı ən vacib rol oynayır.

Beləliklə, uzun nəzəri və təcrübi axtarışlardan sonra görkəmli müğənni və pedaqoq Azərbaycan dilinin fonetik xüsusiyyətlərini üzə çıxararaq, Avropa və milli oxuma tərzini ustalıqla növbələşdirmişdir. Bülbül müntəzəm və hamar səslənmənin, vokal tələffüzün mütəşəkkilliyinin əldə olunması üçün bir sıra metodik üsullar tətbiq etmiş, diapazonun genişləndirilməsi üçün öz üsullarını irəli sürmüşdür.

II Fəsil – "Vokal sənətində səhnə ifaçılığının xüsusiyyətləri" adlanır və iki yarımfəsillərdən ibarətdir. **2.1. "Vokal sənətində ifaçılıq məharəti və sənətkarlıq"** adlı yarımfəsildə vokal ifaçılığın təkmilləşdirilməsi problemləri üzə çıxarılır. Qeyd olunur ki, vokal ifaçının professional ustalığının mahiyyəti bilik və bacarıqlara yiyələnməkdən, əsərin bədii obrazının musiqili ifadəsinin yaradıcı şəkildə təcəssümündən ibarətdir. Vokal ustalıq ifaçıda müvafiq texnikanın, intuisiyanın, dəqiq ifa tərzinin, düzgün səhnə davranışının, sözlərin aydın şəkildə ifadəsinin və aktyor məharətinin tərbiyə olunmasını tələb edir. Geniş mənada götürsək, vokal ustalıq özündə iş, hərəkət, fəaliyyət, sistemli və şəxsi oriyentir tələb edir. Fəaliyyətli iş baxımdan ustalıq məharəti professional işin keyfiyyəti kimi dərk olunur.

Onun yaradıcı xarakteri vardır və o, yekun nəticənin əldə olunmasına doğru istiqamətlənir. Sistemli yanaşma baxımdan vokal ustalıq ifaçının professional bilik, bacarıq və keyfiyyətlərinin cəmi kimi nəzərdən keçirilir. Şəxsi yanaşma baxımdan vokal məharət - ifaçıda professionalizm, yaradıcı və mənəvi keyfiyyətlərin sintezidir. Bunların təzahürü ifanın yaradıcı aspekti ilə bağlı olub, əsərin üzərində çox zəhmət tələb edən səbrli iş nəticəsində musiqi obrazının yaradılması və həyata keçirilməsi ilə nəticələnir. Artistin unikal xüsusiyyətlərindən biri də onun emosionallığı, fiziki hərəkətliliyi və "obraza girmək" bacarığının psixoloji aspektindən ibarətdir.

Musiqinin əsas xüsusiyyəti insan nitqinin intonasiyalarına əsaslanan ifadəlilikdir, hansı ki, gerçək həyatda emosiya və hislərlə əksini tapır. Musiqinin ifadə vasitələri mürəkkəb təşkil olunmuş iyerarxiya elementləri sistemidir. Bu elementlər sistemi musiqi dilində, təcrübəsində və musiqi mətnində mədəni-tarixi fiksasiyaya malikdir. Vokal ifanın ifadəliliyi – vokal mədəniyyətin əlamətidir, burada musiqiçinin öz ifası və yaratdığı müəyyən bədii obrazın yaradılması vasitəsi ilə onun ətraf aləmə subyektiv münasibəti üzə çıxır. Öz təbiəti etibarilə vokal ifa məzmunludur, buna görə də özündə ümummədəni, fəlsəfi və estetik fəaliyyət potensialı daşıyaraq, musiqi gerçəkliyinin bir hissəsi kimi çıxış edir. Daha geniş mənada götürsək, vokal ifadəlilik - musiqi fəaliyyətini həyata keçirməyə imkan verən psixoloji faktordur.

2.2. "Müğənninin obrazlı təfəkkürü və nitqinin emosional ifadəliliyi" adlanır. Bu yarımfəsildə musiqinin spesifikasının müəyyənləşdirilməsi zamanı səs obrazları vasitəsi ilə bədii təfəkkür anlayışı nəzərdən keçirilir. Çünki bütün bu elementlər musiqini tam şəkildə müəyyənləşdirir. Spesifik cizgilərə malik olan bədiilik, təfəkkür, səs, obraz – bütün bunlar ayrılmazlıq, tamlıq yaradır və bu bölünməzlikdən, vahidlikdən kənara çıxmır. Bədii təfəkkürün bir sıra xüsusiyyətləri vardır: vasitə və bilavasitə ifadə, emosional və dolğun çalarların bir-birinə özünəməxsus şəkildə hörülməsi, intuisiyanın bunlara nisbətən daha böyük rolu, bədii fikrin obrazlı formada maddiləşdirilməsi buna misaldır. Beləliklə, vokal ifaçının bədii obrazlı təfəkkürü - emosional, məntiqi və intellektual komponentləri cəm edən prosesdir. Obrazlı təfəkkürün inkişafı musiqili təsəvvürləri genişləndirir, musiqinin məzmununu tam şəkildə üzə çıxarmağa imkan verir və yaradıcı təxəyyülü aktivləşdirir.

Müğənninin obrazlı təfəkkürü nitqin emosional ifadəliliyi ilə sıx bağlıdır. Vokal sənətində məntiqi ifadəlilik mətnlə musiqi arasındakı uyğunluqdur, onlar qarşılıqlı əlaqə yaratmalıdır. İfadəliliyin əsas elementləri məntiqi vurğu və məntiqi pauzalardır. Məntiqi vurğu dedikdə, söz, ibarə və əsərin hissələrinin məna incəlikləri nəzərdə tutulur. Buna uyğun olaraq

sözdəki məntiqi vurğu və mətndəki məntiqi vurğu bir-birindən fərqlənir. Nitq və vokal mətnin məzmununun aktiv üzə çıxarılma yollarından biri – məntiqi pauzadır. O, öz əhəmiyyətini itirməməlidir: vokal mətnə xas məna incəliklərini yaradan pauzalarsız vokal üslub "solğunlaşır". Emosional-obrazlı ifadəlilik öz daxilində musiqi və deklamasiyalılığı növbələşdirir. Bunlardan birincisi musiqinin məzmun dərinliyini, kulminasiya zirvəsini əks etdirir. Deklamasiyalılıq isə nitqin bədii – obrazlı şəkildə təqdim edilməsində, psixoloji vurğu və psixoloji pauzaların köməyi ilə mətndəki çox mühüm bədii kulminasiyaların üzə çıxarılmasında ifadəsini tapır.

III Fəsil – "Vokal ifaçının klassik obrazı" adlanır və iki yarımfəsillərdən ibarətdir. **3.1. "Vokal obrazın zahiri qavrama elementləri"** adlı yarımfəslində müğənninin səhnədə nümayiş etdirməli olduğu spesifik bacarıqlar nəzərdən keçirilir. Vokal obrazı qavramaq və təsəvvür etmək üçün bu elementlərin arasındakı müqayisəli təhlili cədvəl formasında nəzərdən keçirmək olar (cədvəl 1).

Cədvəl 1

"Qavrama" və "təsəvvür" anlayışlarının müqayisəli təhlili

Qavrama	Təsəvvür
Qavrama maddidir (obyektiv xarakterə malikdir)	Təsəvvür obrazlıdır və subyektiv xarakter daşıyır.
Qavrama zahiri obyektiv məkanda meydana çıxır.	Təsəvvür daxili subyektiv məkanda meydana çıxır.
Qavrama aydın şəkildə təsvir edilir və bizim qarşımızda bütün təfsilatı ilə durur.	Təsəvvür parlaq təsvirdən məhrumdur və bizim üçün natamamdır
Duyğu yolu ilə qavrama öz dolğunluğu və təravəti ilə fərqlənir, məsələn, rənglər – parlaq olur.	Bəzən duyğu elementləri qavrama ilə eynidir. Lakin əksər hallarda onların ifadə olunma dərəcəsi qeyri-adekvatdır.
Qavrama daimidir və dəyişikliksiz asanlıqla qala bilir.	Təsəvvür dağılıb, səpələnir, onları hər dəfə yenidən yaratmaq lazımdır.
Qavrama iradədən asılı deyil. Qavrama əsassız olaraq meydana çıxmır, yaxud dəyişmir və passivlik hissi ilə dərk edilir.	Təsəvvür iradədən asılıdır. O, sərbəst şəkildə meydana çıxır, yaxud dəyişir. Təsəvvür aktivlik hissi ilə əmələ gəlir.

Vokal ifaçılığın müxtəlif janrlarında zahiri şərtlərin təsirinə dair nəticələr aşağıda öz əksini tapmışdır:

1) Akademik müğənni üçün yaxşı akustik məkan keyfiyyətli çıxışın ən vacib şərtlərindən biridir;

2) Xanəndə zahiri faktorların təsirindən asılı deyil;

3) Estrada müğənnisi, çox vaxt isə akademik müğənni səs rejissorunun professionallığından, səs gücləndirən aparatlardan asılı olur.

Lakin vokal mədəniyyət və səhnə plastikasının bütün üslub və janrları üçün ümumi olan obyektiv qanun-qaydalar mövcuddur. Bədii və musiqili obrazın təcəssümü üçün yaradıcılıq səylərinin zaman limiti ərzində bir yerə cəmləşdirilmə, dərhal yeni şəklə çevrilmə, bir obrazdan digərinə keçmə, jest və mimikanı dəyişmə bacarığını qeyd etmək lazımdır. Transformasiya ustalığı müğənninin səhnə repertuarı sahəsində həqiqi peşəkarlığını üzə çıxarır. Müğənni bir sıra musiqi janrlarında hərəkətverici vücud koordinasiyasına malik olmalıdır. Buna görə də vokal məşğələlər prosesində rəqsavari hərəkətləri daxil etmək zəruridir. Onlar səs aparatının işinə, yaxşı təsir edir, tənəffüz əzələlərini aktivləşdirir, fiziki "sıxaclar"ı aradan götürür. Zaman və məkan ərzində hərəkətlərin musiqi ritminə müvafiq qaydada bölüşdürülməsi mühüm rol oynayır. **Şəkil 1.**



Şəkil 1. "Müğənni – dinləyici" səs siqnalını əks etdirən blok-sxemlər sistemi.

Vokal ifaçı obrazı müğənninin yaradıcı sima fenomeni ilə ölçülür. Sxemdən göründüyü kimi, bir neçə komponentdən ibarət olur.

Bədii prinsiplər və ifaçılıq üsulları sistemi - dəyərlər spektrini, janr üstünlüklərini, ifaçılıq üslubu və estetik zövqləri, ifaçının tamaşaçı ilə kommunikasiyasını, eləcə də ifaçının bədii səhnə məkanı və səhnə çıxışının təşkilinə dair müxtəlif üsul və metodları ehtiva edir. **Şəkil 2.**



Şəkil 2. Müğənninin şəxsi simasının təhlili üzrə alqoritm sxemi.

3.2. "İfaçının musiqinin janrı və ifa olunan əsərin süjeti ilə qarşılıqlı əlaqəsi" adlanır. Bu yarımfəsildə qeyd olunur ki, janrlar bəstəkar ideyalarının daşıyıcısıdır. Bunun vasitəsi ilə ifaçılıq mədəniyyəti özünün gerçəkləşməsi üçün yeni yollarını tapır. Bəstəkar yaradıcılığının xüsusi sahəsini ansambl musiqisi təşkil edir. Ansambl ifaçılığının müxtəlif formalarını tədqiq edən alimlər vokal əsərlərin quruluş təşkilində dialoq prinsipini, musiqidə dialoq formalarının özünəməxsus məntiqiliyi məsələsini əsas götürərək, "dialoq mədəniyyəti" fenomeninin müstəqil cəhət kimi nəzərdən keçirilməsini təklif edirlər. Hazırkı problem musiqi semantikası, musiqidə məna təhlili, "işarələr"lə, musiqi mətnlərinin artukulyasiyalı-nitq tərəfləri ilə bağlıdır. Musiqi yaradıcılığının janr tərəfinə musiqidən kənar həyati hadisələri musiqinin daxilindəki spesifik bədii dilə köçürən müəyyən "proqram" qoyulmuşdur.

Bədii cəhətdən əhəmiyyətli musiqi mövzusu bəstəkar təxəyyülündə mədəniyyətin musiqili-janrvari ənənələrindən kənarda meydana çıxa bilməz. Hazırkı proses Azərbaycan bəstəkarlarının yaradıcılığında özünü göstərən müxtəlif janrlı əsərlərin quruluş və üslub xüsusiyyətlərində aydın ifadəsini tapır. Bəstəkarlar öz əsərlərində dünyada baş verən təzahürləri ifadə edirlər. Bu mənada bəstəkarlarımızın romans yaradıcılığı diqqətəlayiqdir. Bu sahədə özünü göstərən poetik mətn daim genişlənmiş, daha da rəngarəng olmuşdur. Q.Qarayevin "Üç noktürn" əsəri bu janrın özünəməxsus kulminasiyası olmaqla yanaşı, Azərbaycanda kamera-vokal silsilənin əsasını qoymuşdur. L.Xyuzun şerlərinin poetik mətni Q.Qarayevin həmin əsərinin üslub xüsusiyyətlərini müəyyənləşdirmişdir. Bütün musiqi ifadə vasitələri bəstəkar tərəfindən şüurlu surətdə məhdudlaşdırılmışdır, poetik mətn xüsusiyyətlərinin ifadəliliyi isə gücləndirilmişdir ki, bu da hazırkı silsiləni "musiqili şeir"ə yaxınlaşdırmışdır.

Bəstəkarların yaradıcılığında milli kamera-vokal mədəniyyətin təmayüllərindən biri də musiqi fikrinin monoloq şəklində ifadə forması, şəxsi lirika, musiqi nitqidir. 60-cı illərdə A.Məlikovun milli və rus romans mədəniyyətinin istiqamətinə yönələn romans silsilələri meydana çıxır. N.Hikmətin şeirlərini səsləndirərkən bəstəkar orijinal türk mətnindən deyil, mətnin rus dilinə tərcüməsindən istifadə etmişdir ki, bu da romansların poetika və leksikasına təsir etməyə bilməzdi.

M.Mirzəyevin S.Yeseninin məşhur şeirləri əsasında yazdığı "Fars motivləri" kamera vokal silsiləsi milli mahnıvari intonasiya, poetik mövzu və parlaq ifadə olunmuş vahid dramaturgiya altında birləşdirilmişdir. Canlı,

səmimi ifadə tərzi mahnının xüsusi monoloq növünün və bu tərzə xas olan "söhbət" formasının yaranmasına səbəb olmuşdur.

Janr - ifaçılıq təcrübəsini generasiya edərək, mədəniyyətin həyati aləmini musiqi səs - obrazları ilə əlaqələndirir. Buna görə də ifaçılıq ənənəsi janrın təşəkkülü və musiqinin inkişafı kimi nəzərdən keçirilə bilər.

Vokal musiqi elə bir janr sahəsidir ki, burada janr komponentləri – poetik mətn və musiqinin bərabər hüquqlu olması parlaq ifadə olunmuş dialoq əks etdirir və ifaçıların dialoq partnyorluğuna səbəb olur. Beləliklə, janrın tələb etdiyi cəhətlər müəyyən strukturda əksini tapır. Vokal miniatürün ənənəvi mahnı-romans formalarından daha mürəkkəb formalara – monoloqlarda prozaik nəzmə və "musiqidə şer"ə qədərki inkişafı janr əlamətlərinin toplanılmasını bildirir. Bu zaman daha erkən meydana çıxan janrlar ləğv olunmur, nisbətən sonrakı, yeni janrlarla əvəz edilir. Beləliklə, hər hansı bir janr kimi vokal miniatür janrı da öz keçmişini unutmur və yeni oberton üsulubu bu janrın istiqamətinə mane olmur. Janrın məhz dialoq aspekti musiqi əsərinin təhlil predmetinə çevrilir. Hər bir dövrdə poeziya və musiqinin dialoqu öz səciyyəvi əlamətləri ilə həyata keçirilmişdir. Lakin XX əsrin əvvəllərindən etibarən vokal əsərlərin yaradılması zamanı poeziya xüsusi rol yerinə yetirməyə, bədii dəyər kəsb etməyə, "musiqi cəhətdən başqa şəklə düşməyə"[65] başlamışdır. Beləliklə, vokal yaradıcılıq müəyyən struktur olub, professional ustalığın göstərici olan bir-biri ilə qarşılıqlı əlaqəli elementlərdən təşkil olunmuş mürəkkəb yaradıcı kompleksdir.

Nəticədə tədqiqat işində yerinə yetirilmiş təhlillərə yekun vurulur və qeyd olunur ki, vokal ifaçılıq sənəti – musiqi yaradıcılığının vacib formasıdır. Ona görə ki, oxuma sənətində insan qəlbinin gözəlliyi, zənginliyi və genişliyini ifadə edən musiqi və poeziya adlı iki qüvvə birləşir. Söz, musiqi və əzəmətli səsin yalnız üzvi vəhdəti, onların məna və emosional başlanğıclarının birləşməsi vokal sənətinin solmayan əbədiliyini ifadə edir. Dinləyicilərin estetik tələblərinə cavab verən müğənni - əsl müğənnidir. Belə ifaçı dinləyicinin tələbatlarını ödəyir. Musiqi əsərinin yüksək bədii interpretasiyası musiqiçinin fəaliyyətinin əsas məqsədi və yekun cəmidir. Musiqiçinin ustalığı ifanın yaradıcılıq aspektində, musiqi əsərindəki obrazın yaradılması və həyata keçirilməsində özünü göstərir.

Müasir musiqi elmi vokal sənətində səs aparatı üzrə kifayət qədər elmi material ehtiva edir ki, bu da müğənninin professional kimi yetişməsi ilə bağlı bütün məsələlərə mütəxəssis kimi yanaşmaya imkan verir. Səs

[65] Кац Б. «Стань музыкою, слово!» - Л.: Сов. композитор. 1983. – 153 с.

aparatının mürəkkəb akustik-fizioloji qanun-qaydalara tabe olduğuna görə, səs aparatının "canlı musiqi aləti" kimi əsas qanunauyğunluqları və prinsipləri onun yaradılmasında, təkmilləşdirilməsində və qorunmasında əsas şərtlərdən biridir. Bu cəhət müğənniyə nəinki professional ifaçılıq keyfiyyətlərinin təşəkkülündə, eyni zamanda nəzəri və praktik biliklərin sonrakı nəslin nümayəndələrinə ötürülməsinə kömək edəcək ki, bu da vokal məktəbin inkişafında böyük əhəmiyyət daşıyır.

Səs aparatı - orqanların məcmusu kimi, səs funksiyası – onu idarə edən sistem kimi vahid tamlıq yaradır və bu tamlıq - özününizamlayan, özünüsazlayan və özünüinkişaf etdirən bir sistemdir. Vokal-ifaçılıq janrından irəli gələrək, bu sistem estetika və səs təsəvvürlərinin tələb etdiyi oxduma tərzinə müvafiq fonasiya texnikasına əsaslanır. Müxtəlif milli məktəblərə və janr istiqamətlərinə mənsub olan müğənnilərin vokal texnikası bir çox ümumi və fərqli spesifik xüsusiyyətlərə malikdir.

Səs təşkilinin fiziologiyası nöqteyi-nəzərindən vokal sənətinin istənilən janrında səsin qoyuluşu impedansın[66] düzgün seçilməsi və qırtlağın sabitləşdirilməsindən ibarətdir. Qırtlağın yüksəklik dərəcəsi müğənninin həm fərdi fiziki keyfiyyətlərdən, həm də vokal sənətindəki müəyyən janrdan asılıdır.

Vokal ifa zamanı düzgün ədəbi tələffüz orfoepiya qaydalarına əsaslanır ki, bu da nitqin fonetik təbiətindən irəli gəlir. Lakin vokal nitqin spesifikası, onun musiqili-vokal şərtlərdən asılılığı (yüksəklik, uzunluq müddəti, temp, registr və s.) vokal ifanın səhnə tələffüzünün orfoepik qanunlarına tam olaraq aid etməyə imkan verməyən bir sıra fonetik qanunauyğunluqlar yaradır.

Vokal ifanın fonetikası, vokalın fiziki və akustik xüsusiyyətləri, vokal nitqə dair mütəxəssis fikirləri, bu sənətin nəzəri və metodik tədqiqatçılarının apardıqları müşahidələr vokal sənətində orfoepik qanunauyğunluqların meydana çıxarılmasına əsas verir.

Bütün sənət növləri kimi vokal sənət də millidir, çünki öz doğma xalqının səs təfəkküründə və intonasiya quruluşuna əsaslanır və özünün spesifik xüsusiyyətlərinə malik olur.

İfaçılıq təcrübəsi, dinləyici fikri və bəstəkarlıq təcrübəsi – musiqidə mövcud olan bu üç tarixi faktor həm göstərilən ardıcıllıqda, həm də müğənninin professional tərbiyə olunması məsələlərində bərabər tabelik əmələ gətirir.

---

[66] İmpedans (akustik) – ing.impedance, lat. impedio (maneə) ortanın kompleks akustik müqaviməti.

Beləliklə, gerçəkliklə fəal münasibətlərə müğənninin ayrı-ayrı psixoloji fəaliyyət prosesləri deyil, onun bilavasitə özü qədəm qoyur. Bu isə deməyə əsas verir ki, qavrayış - müğənninin əhvalını, onun vokal-texniki və vokal-ifaçılıq vərdişlərini nəzərə alan proqnozlaşdırılmış xarakterə malikdir.

Dissertasiya işində nəzərdən keçirilən material müğənninin ifaçılıq fəaliyyəti üçün zəruri olan konkret yaradıcılıq keyfiyyətlərinin, yaradıcı bacarıqların üzə çıxarılmasını nümayiş etdirir:

- musiqi əsərini duymaq qabiliyyəti;
- yeni əsəri yadda saxlamaq və şüurlu şəkildə hifz etmək bacarığı (əsərin "dinamik stereotipi");
- ifaçının vokal-səs duyğularının zənginləşdirilməsi;
- ayrı-ayrı vokal duyğuların və professional vərdişlərin ümumiləşdirilməsi (onların müəyyən edilməsi) – musiqili - vokal məntiq qanunlarına tabe olaraq düşünmək bacarığı.

Lakin müğənni bu ifaçılıq keyfiyyətlərinin üzə çıxarılması üçün müxtəlif dillərin və şifahi nitqin arasındakı fərqi, musiqinin milli spesifikasını, musiqi təfəkkürünü və müğənnilik ənənələrini dərk etməlidir. Bundan başqa, nitq intonasiyasının xarakteri, konstruktiv-semantik funksiyası da mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan vokal məktəbinə uyğun olaraq, müğənni tərəfindən musiqinin milli-bədii xüsusiyyətlərinin mənimsənilməsi olduqca mürəkkəb xarakter əldə edir. Bu, ilk növbədə Azərbaycan dilinin fonetikası və musiqi üslubu, vokal melodikasının intonasiyalı quruluşu və onun obrazlı-poetik məzmununun spesifikası ilə bağlıdır.

Hər hansı bir milli vokal məktəbi təmsil edən müğənni ifası həm də vokal əsərin janr və məzmunundan asılıdır. Bununla həm də vokal əsərlərin tessitura və xarakteri, səstəşkili və səshərəkəti müəyyən olunur. Avropa musiqisindən tamamilə fərqlənən Azərbaycan musiqisinə gəlincə, hazırkı məsələ daha da mürəkkəbləşir. Uzun illər ifaçılıq, elmi və pedaqoji sahədə axtarışlar aparan SSRİ xalq artisti Bülbül vokal ifaçılıq sənətində müxtəlif sistemləri sintezləşdirən yeni tipli vokal məktəb və tədris metodikası yaratmağa müvəffəq olur.

Bülbül Azərbaycan vokal musiqisinin, xanəndə və aşıqların vokal-intonasiya mədəniyyətinin, doğma dilimizin fonetikasının ən əhəmiyyətli cəhətlərini dərk etmiş və onlara xas bir sıra vokal prinsipləri akademik tipli məktəbə tətbiq etmişdir. Beləliklə, o, Azərbayan müğənniləri tərəfindən Avropa və rus klassik musiqinin ifasına uyğunlaşmanın yollarını tapmışdır.

Dissertasiya üzərində gedən iş prosesi zamanı aydın olmuşdur ki, milli mənsubiyyətindən asılı olmayaraq, vokal ifaçılıq sənəti intonasiya mədəniyyətinin dərk olunmasını, yaxşı tələffüz, yüksək nitq və səhnə mədəniyyəti tələb edir. Yəni, son nəticədə bütün bu keyfiyyətlər vokal ifaçının ustalığını təmin etməlidir. Hər bir savadlı vokal ifaçı oxuma prosesində orfoepiya ilə - yəni, sözlərin, səsbirləşmələrinin düzgün tələffüz olunma qanunları ilə tanış olmalıdır. Dilin fonetik əsaslarını bilmək səs üçün zəruri keyfiyyətlərin təkmilləşdirilməsinə kömək edir. Həm də ifa zamanı nitqin təbiiliyi üçün ifaya "canlı" nitq intonasiyalarını tətbiq etmək, sait və samit səsləri qarışdırmamaq lazımdır.

Peşəkar bacarıqların formalaşdırılması zamanı təkcə vokal üzrə məşğələlər deyil, digər sahələrin də əhəmiyyəti böyükdür. Məsələn, xoreoqrafiya - səhnə plastikasını təkmilləşdirir, aktyor sənəti - obraz yaratmaq, obraza girməyi öyrədir. Bütün bu keyfiyyətlər kompleksi işinin ustası olan yüksək peşəkar vokal ifaçıların yetişdirilməsinə imkan yaradır.

Vokal sənətində dialoq və onun dərk olunma ideyasının ifa daxilində gerçəkləşdirilməsi əhəmiyyətli rol oynayır. İfa dialoqu bir neçə mərhələdən ibarətdir. Onlardan birincisi musiqinin ifadə olunmasında janr genenzisinin həqiqi dialoq şərtləri ilə bağlıdır. Bu cəhət ikinci mərhələyə - musiqinin kompozisiya-dialoq formalarının janrvari-üslub şərtlərinə yol açır və daha sonra ifaçılıq və üslub tərzlərinin dialoq şərtlərinə doğru aparır. İfaçılıq dialoqunun bu mərhələsi müğənni tərəfindən musiqinin estetik-məna funksiyalarının əldə edilməsinə imkan verir. Beləliklə, ifaçılıq dialoqunun hər bir mərhələsi ifa olunan əsərin konkret məqamlarını xarakterizə edir, musiqi dilini canlandırır və bu, təbii bir şəkildə dinləyiciyə ötürülür. Yuxarıda qeyd olunan bütün komponentlərə yiyələnən müğənni ifaçılıq sənətini öyrənir, ifa etdiyi əsərin daxili aləmini və psixoloji xüsusiyyətlərini üzə çıxarmağa nail olur.

Dissertasiyanın məzmununa uyğun olaraq aşağıdakı elmi əsərlər çap olunmuşdur:

1. Некоторые особенности ораторского мастерства. // Журнал научных публикаций аспирантов и докторантов. №7 июль 2012. г. Курск, с. 86-90

2. Konuşma sanatı ve konuşma kültürü (Natiqlik sənəti və nitq mədəniyyəti). // Bilimsel Eksen. Научный меридиан. №7, 2012. Türkiyə, c. 67-73

3. Бюльбюль выдающийся вокалист азербайджанской исполнительской культуры. // Всероссийский журнал научных публикаций №3 (18) Москва, 2013. с. 60-63

4. Виртуозное мастерство вокалиста. // Musiqi Dünyası: issue 4_2013, Bakı, c. 1-5

5. Словесно-музыкальная культура в пении. / Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri. XIII Beynəlxalq elmi-praktiki konfransın materialları. Баку 2013, c. 104-106

6. О жанре музыки и сюжете исполняемого произведения. // Harmony Международный музыкальный культурологический журнал. Выпуск №13, 2014. Баку, c. 1-5

7. О взаимосвязи вокальной и речевой мелодики. // Научное мнение. Научный журнал №1 Санкт-Петербургский Университетский консорциум. 2014. www.unipress.pro

8. Художественный образ актера-певца-музыканта. // Harmony Международный музыкальный культурологический журнал. Выпуск № 14, 2015, Баку, c. 1-6

9. Особенности образного и музыкального мышления певца. / "Актуальные аспекты современной науки" Сборник материалов международной научно-практической конференции. Российская Федерация., г. Липецк, 30 июня 2016. c. 59-68

10. Исполнительское искусство как практика актуального интонирования. // European Journal of Humanities and Social Sciences EAST WEST, N2, 2016, Austria, Vienna, c. 6-9

11. Специфика образа вокального исполнителя. // Mədəniyyət Dünyası. Мир культуры. Азербайджанский Государственный Университет Культуры и Искусств. Баку-2016, c. 88-93

12. Səhnə plastikası mədəniyyəti və ifadəliyi. // Musiqi Dünyası 1/70-2017, Bakı, c. 62-64

13. Культура и выразительность сценической пластики. // Musiqi Dünyası 2/71-2017 Баку, c. 24-27

Natavan Eyub Jafarova

The problems of speech and stage culture in the vocal art

SUMMARY

The thesis deals with the issues devoted to the problems of speech and stage culture in the vocal art. Speech and stage culture in the vocal art plays an extremely important role, and the development of their problems is important. The interaction of the musical and verbal component in creating the image of the composition directly depends on the performer's speech and stage culture.

Chapter 1. "The verbal and musical culture in singing" consists of two sections. Section **1.1. "The basics of orthoepy in artistic singing"** notes that in the vocal art the word and music represent an inseparable organic unity. An important task of each singer should be mastering the culture of the word in singing, in the vocal-musical conditions. The concept of "Orpheopia" includes the melody of the word and the intonation of punctuation, the musical and physiological significance of which is of enormous importance for the development of the singer.

1.2. "The role of diction in the vocalist's intonational culture"

The concept of intonational culture, which is a complex of problems, including comprehension, awareness and revealing the intonational nature of speech and music, is investigated. The composer's intonation is the fundamental principle of the musical image. Therefore, it is important for the performer to understand the intonation tasks applicable to the given era, the composer and the work.

Chapter 2. "The features of stage performance in vocal art" consists of two sections. Section **2.1. " Mastery and expressiveness of the vocalist's performance"** reveals the problems of improving the vocal performance.

It is noted that the essence of the professional skill of the vocalist is in the possession of knowledge, the vocalist's methods are mastering the knowledge, methods and techniques of creative embodiment of the musical and artistic image of the work by the vocal art. The vocal skills require the development of appropriate techniques, intuition, a clear manner of performance, correct behavior on the stage, clear expression of words and actor's charm.

Section **2.2. "The singer's imaginative thinking and emotional expressiveness of speech"** deals with the concept of artistic thinking in sound images to determine the specificity of music. Art, thinking, sound, image represent a single whole with specific features.

There are a number of features of artistic thinking: emotional coloration, saturation, a relatively large role of intuition, a figurative form of artistic thought.

Chapter 3. " The classic image of the vocal performer" consists of two sections. Section **3.1. "The visually perceivable elements of the vocal image"** deals with the specific skills that a singer should have on the stage. In a number of musical genres, it is important for vocalists to master the technique of vocal-motor coordination of the body. Therefore, in the process of vocal studies it is necessary to include dance movements, which have a beneficial effect on the functioning of the vocal apparatus, activate the respiratory musculature.

S**ection 3.2. "The interrelation of the performer with the genre of music and the plot of the performed work"** notes that genres are carriers of compositional ideas, through which the performing culture finds its new ways of realization. A special area of the composer creativity is the ensemble music. An artistically significant topic cannot arise in the composer's imagination beyond the musical genre traditions of culture.

In **conclusion**, the results of the study will be summarized, it is emphasized that the art of the vocalist is an important form of musical creativity, therefore that in the songs organically merge two forces reflecting the greatness, wealth, beauty of the human soul, called as music and poetry.

Çapa imzalanıb: 11.12.2015.
Format: 60x84 1/16. Tiraj: 100.

«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
e-mail: *mutarjim@mail.ru*